*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 142-147* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.142*

# Mehdi Hüseynin nəsr yaradıcılığında aşıq obrazı

**Nərmin Həsənova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: nrmn2294@gmail.com

**Annotasiya.** Sovet ədəbiyyatının təşəkkül dövründə yaradıcılığa başlayan Mehdi Hüseyn (1909-1965) XX əsr Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən biridir. Bədii yaradıcılığa kiçik hekayələrlə başlayan Mehdi Hüseyn özündən sonra böyük bir ədəbi irs qoymuşdur. M.Hüseyn qələmə aldığı nəsr əsərlərində bir çox mövzulara toxunmuş, yaşadığı mürəkkəb və ziddiyyətli dövrün mühüm hadisələrini yaratdığı obrazlar vasitəsilə xalqa, cəmiyyətə çatdırmışdır. Mehdi Hüseynin yaradıcılığına nəzər yetirərkən, onun əsaslı mənbə kimi folklordan yan keçmədiyini aydın görürük. Kiçik hekayələrindən tutmuş ən irihəcmli əsərlərində də xalq ədəbiyyatınha müraciət vardır. Milli varlığımızın əsas atributu olan ozan-aşığı da unutmamış, həm nəsr, həm də dram əsərlərində bu obrazı canlandırmışdır. Mehdi Hüseynin nəsr əsərləri bir neçə aspektdən böyük əhəmiyyətə malik olmasına baxmayaraq, məqalədə əsas üstünlüyü aşıq obrazının işlənməsi məsələsinə yönəltmişik. XX əsrin otuz-əllinci illəri kimi mürəkkəb və təhlükəli bir zaman kəsimində folklor söyləyicisinin bədii mətndə necə obrazlaşdırılmasından danışmışıq.
**Açar sözlər:** Mehdi Hüseyn, hekayə, roman, aşıq, saz, XX əsr

**Məqalə tarixçəsi:** göndərilib – 16.06.2025; qəbul edilib – 24.06.2025

# The image of the ashug in Mehdi Huseyn's prose

**Narmin Hasanova**
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: nrmn2294@gmail.com

**Abstract.** Mehdi Huseyn (1909-1965), who began his creative work during the formation of Soviet literature, is one of the prominent representatives of Azerbaijani prose of the 20th century. Mehdi Huseyn, who began his artistic work with short stories, left behind a great literary legacy. M.Huseyn touched on many topics in his prose works and conveyed important events of the complex and contradictory period he lived in to the people and society through the images he created. When looking at Mehdi Huseyn's creativity, we clearly see that he did not ignore folklore as a fundamental source. From his short stories to his most voluminous works, there is an appeal to folk literature. He did not forget the main attribute of our national existence, the ozan-ashug, and he revived this image in both prose and drama. Although the prose works of the writer Mehdi Huseyn are of great importance in several aspects, in the article we have focused mainly on the development of the image of the ashug. We have talked about how the folklore narrator was depicted in the literary text in a complex and dangerous period, such as the thirties and fifties of the 20th century.
**Keywords:** Mehdi Huseyn, story, novel, ashug, saz, 20th century

**Article history:** received – 16.06.2025; accepted – 24.06.2025

## Giriş / *Introduction*

Sovet ədəbiyyatının təşəkkül dövründə yaradıcılığa başlayan Mehdi Hüseyn (1909-1965) XX əsr Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən biridir. Mehdi Hüseyn öz XX əsrin otuzuncu illərindən ədəbi fəaliyyətlə məşğul olmuşdur. Nəsrin demək olar ki, bütün formalarında qələmini sınayan M.Hüseyn əsərlərində həmin dövrün gerçəkliklərini sənətkarlıqla əks etdirirdi. Ədəbiyyatşünas alim M.Cəlal "Zəngin yaradıcılıq yolu" məqaləsində haqlı olaraq qeyd edir ki, "Mehdi nə janr, nə şəkil, nə mövzu cəhətdən özünü məhdudlaşdırmağa çalışan ədib deyildi. F.Engelsin Renesans dövrü xadimləri haqqında məşhur sözü yadıma düşür: bu xadimlərin bəzisi silah ilə, bəzisi qələm ilə, bəzisi də həm onunla və həm də bununla ideya mübarizəsində çarpışırdılar. Mənim təsəvvürümdə Mehdi Hüseyn də ədəbi mübarizələrdə belə bir cəbhə tuturdu" [1, s.35].

Bədii yaradıcılığa kiçik hekayələrlə başlayan Mehdi Hüseyn özündən sonra böyük bir ədəbi irs qoymuş və qələmə aldığı nəsr əsərlərində bir çox mövzulara toxunmuş, yaşadığı mürəkkəb və ziddiyyətli dövrün mühüm hadisələrini yaratdığı obrazlar vasitəsilə xalqa, cəmiyyətə çatdırmışdır. Öz əsərləri ilə ədəbiyyatımızda ilklərə imza atmış (məsələn, ilk tarixi povesti olan "Komissar" – N.H.), M.Hüseyn SSRİ Dövlət Mükafatına layiq görülmüşdür.

## Əsas hissə / *Main part*

Xalq yazıçısı Mehdi Hüseynin nəsrinə nəzər yetirərkən, "bu nəsrin milli səciyyəsi üzərində dayanmaq lazımdır. Dünya ədəbiyyatı incilərinə yaxşı bələd olan M.Hüseyn hər hansı ədəbiyyatın başqa bir ədəbiyyat üzərində yüksəlməsini arzuolunmaz hal hesab edirdi. O, vəfatından bir neçə gün qabaq yazdığı "Yeni üfüqlərə doğru" məqaləsində qeyd edirdi ki, həqiqi ədəbiyyat unifikasiya yolu ilə deyil, özünəməxsus milli obrazlar sistemini, milli şəkil zənginliyini və üslub orijinallığını yaratmaq yolu ilə irəliləyir. "Ölülər" "Müfəttiş"in eynisi olsaydı, biz onunla öyünə bilməzdik. Yaxud "Vaqif" "Puşkin" dramına bənzəsəydi, bizi bu qədər sevindirməzdi. Unutmaq lazım deyil ki, bədii əsərdə müəyyən bir xalqın tarixi ənənələri, təfəkkür tərzi, hiss və duyğuları və hətta dil xüsusiyyətləri əks olunur. M.Hüseynin nəsri də məhz bu xüsusiyyətləri özündə əks etdirən bir nəsr idi" [7, s.4-5].

Mehdi Hüseynin yaradıcılığına nəzər yetirərkən onun əsaslı mənbə kimi folklordan yan keçmədiyini aydın görürük. Kiçik hekayələrindən tutmuş, ən irihəcmli əsərlərində də xalq ədəbiyyatına müraciət vardır. "Maral əfsanəsi", "Kərəm əfsanəsi", "Kor at", "Abşeron", "Qara daşlar", "Şöhrət" və s. kimi əsərləri də bu qəbildəndir. Yazıçı, dramaturq Mehdi Hüseyn qələmə aldığı əsərlərində özünün də qeyd etdiyi kimi, rəngarəng milli obrazlar sistemi yaratmışdır. Milli varlığımızın əsas atributu olan ozan-aşığı da unutmamış, həm nəsr, həm də dram əsərlərində bu obrazı canlandırmışdır.

Nəsr əsərləri içərisində ilk olaraq "Kor at" hekayəsi diqqətimizi çəkir. Bu kiçik hekayədə verilən aşıq simvolik bir obraz qismində çıxış edir. Kənddə gözəl bir toy məclisi qurulur. El məclislərinin bəzəyi olan aşıq burada telli sazın səsi ilə toy camaatını şənləndirir. "Amma çox təəssüf ki, bu yerlərin sevimli şairi Vaqif, vətəninin gözəl toylarına çoxdan vida edib, bülbül kimi ötmür, sənəmlərə meydan oxumurdu, sağ qalan yalnız aşıq idi. O, zurnanın kiridiyini görəndə telli sazını döşünə basdı, bütün kənddə eşidilən zil və gözəl səsi ilə ötməyə başladı:

*Görüm a bəy, toyun mübarək olsun,*
*Sağdışına, solduşuna borc olsun,*
*Ay borc olsun.*

O ötürdü, telli sazını məharətlə çalırdı və özü də sevinə-sevinə oynayırdı" [4, s.42].

Daha sonra aşıq obrazına Mehdi Hüseynin Bakı neftçilərinin həyatından bəhs edən, ümumiyyətlə müxtəlif insan obrazlarının yer aldığı, Azərbaycan nəsrinin xarakterik nümunəsi olan "Abşeron" romanında rast gəlirik. Əsər 1947-1948-ci illərdə qələmə alınmış Azərbaycan sovet romanının bitkin nümunələrindəndir. Xarici ölkələrdə tərcümə olunaraq çap edilmiş, tənqidçilər tərəfindən yüksək qiymətləndirilmiş bu əsəri yazmamışdan öncə Mehdi Hüseyn neftçilərin həyatı ilə yaxından tanış olmuş, onları bir nasir kimi diqqətlə izləmişdir. Yazıçı əsərdə real həyat hadisələrini böyük sənətkarlıqla əks etdirmişdir. Obrazlar qalereyasının zənginliyi əsəri daha da canlı edir. Əsər haqqında o zaman da, bu zaman da müsbət fikirlər söylənilmişdir. Əsərin baş qəhrəmanı Tahir obrazı əvvəldə kənddən şəhərə işləmək üçün gələn gənc bir oğlan kimi təsvir edilir. Elə aşıq obrazı da bu gənc neftçiylə vəhdət halında yaradılmışdır. Yazıçı Tahir obrazını sözə baxmayan, cəsarətli, qorxmaz biri kimi canlandırır. Tahirin qorxmazlığını oxucularına təqdim edərkən milli musiqi alətimizə müraciət edir.

"Tahir əlini dizinə çırpıb gileyləndi:

- A kişi, sən öləsən, bu arvad mənim canımı boğazıma yığıb. Başlayıb ki, tənqidi yerə qoy, özünə düşmən qazanma. Nə var, nə var, bir dəfə klubda saz çala-çala oxuyub, sədrə, briqadirə həcv demişəm [5, s.17].

Elə bu hissədən əsərin mövcud sovet ideoloji siyasi sisteminin tələbinə uyğun formada yazıldığını sezə bilirik. Belə ki, XX əsrin 20-50-ci illərində yazılan əsərlərdə bir qayda olaraq sadə camaatda yuxarı təbəqə nümayəndələrinə qarşı kin, nifrət, qəzəb ovqatı yaradılmalı, sinfi nümayəndələrin ədalətsizliyinə qarşı etirazları bildirilməli idi. Burada da kəndliləri Bakıya könüllü işləməyə göndərməyən sədr İmran kişinin sazla həcv olunması dövrün tipik tələblərindən biri idi. Tahir əsərdə sadəcə saz çala bilən sıradan bir gənc kimi yox, dostları tərəfindən Aşıq Tahir adlandırılan obraz kimi qələmə alınır. M.Hüseyn hər dəfə aşıq musiqisindən, saz havasından əsərin elə yerində istifadə edir ki, romana xüsusi bir ab-hava gətirir. Romanın bu hissəsinə diqqət yetirək:

"Tahir anasının kənddən yolladığı sazı torbadan çıxarıb kökləməyə başladı. Usta Ramazan onu həvəsləndirmək istədi və fikri-zikri sazda olan Tahirin də aydın hiss etdiyi bir mehribanlıqla əlini onun çiyninə qoydu.

- Çal, oxu, oğlum, mahnı adamın dərdini unutdurur.... – qoca köksünü ötürdü və Tahirə elə gəldi ki, o yenə də oğlanlarını xatırladığı üçün belə deyir.

- Bu saz ki, var, səsini eşidəndə adamı cavanlaşdırır.

Tahir telli sazını sinəsinə basdı və gözzəlləmə çaldı. Onun baxışları ilham və məhəbbətlə doldu. Tahir oxudu:

*Yarım çıxıb yenə bağda gəzməyə,*
*Sallanıban yüz min naz ilən gəlir.*
*Bir aynaqabaqlı, mah, qələm qaşlı,*
*Ağ üzə xalları düzülən gəlir...."* [5, s.74-75]

Buradakı gözəlləmə XVI əsrin sonu, XVII əsrin əvvəllərində Ərzurum çevrəsində yaşadığı ehtimal olunan, bir vaxtlar Ərzurumlu Əmrah, Əzətinli kimi adlarla yazıb-yaradan Aşıq Əmrah haqqında yazılmış "Əmrah" dastanındandır. Deməli, yazıçının əsərdə yer ayırdığı Aşıq Tahir obrazı onun folklor bilikləri ilə bədii təxəyyülünün qovuşuq halda inikasıdır.Yazıçı əsərdə folklor motivlərindən istifadəni sənətkarlıqla, ustalıqla yerinə yetirmişdir. Belə ki, XX əsrin 50-ci illərində sinfi dəyərlərin hökm sürdüyü bir vaxtda milli-mənəvi, milli-tarixi dəyərlərə xüsusi əhəmiyyət vermək, milli mövqeni sinfi mövqedən öndə saxlamaq xeyli dərəcədə cəsarətli bir addım idi. M.Hüseynin zəhmətkeş fəhlənin timsalında aşıq obrazını verməsi məhz həmin dövrün tələbinə uyğun bir addım idi. Doğrudur, yazıçı bu əsərində yaratdığı folklor informatoruna suni şəkildə ideoloji boya vurmaqdan çəkinmişdir. Onun gənc neftçinin simasında verdiyi aşıq obrazı həm çətin

günlərdə xalqının yanında olan, həm də sevdiyi gözəlin şərəfinə gözəlləmələr deyən bir qəhrəmandır.

Yazıçı M.Hüseyn əsərdə Aşıq Tahirin sazını dilləndirməsini mütləq hansısa bir vacib məqamla əlaqələndirir. Əsərdə briqada üzvlərindən olan Sergey Timofeyeviç Vasilyev əlində Tahirin sazı gənclərə tərəf gələrək ondan oxumağını istəyir. Bakıda doğulan, ta uşaqlıqdan azərbaycanlılarla böyüyən, 16-17 yaşında ikən müsəlman bir qıza – Fəridəyə vurulan, lakin rusa ərə getməyin zəmanənin tələbinə zidd olmasına baxmayaraq, nakam məhəbbətini ürəyindən qoparıb ata bilməyən Sergeyin həyat tarixçəsini qeyd edərkən mövcud siyasi-ideoloji sistemin cəmiyyət üzərindəki təsirinə toxunur. "Vasilyev Fəridənin əhvalatından sonra da azərbaycanlılarla aranı vurmadı. O, Fəridənin ata-anasını yox, zəmanəni təqsirləndirirdi. Hələ indi də onlarla salaməleykümü kəsməmişdi. Əldən-ayaqdan düşmüş qocalar, Sergey Timofeyeviçin xətrini istəyir və onunla birlikdə, qızlarını vaxtsız öldürən köhnə dünyaya lənət yağdırardılar" [5, s.80]. Azərbaycan xalq nəğmələrini çox sevən, hətta arabir titrək səslə qəmgin bayatılar oxuyan Sergey Timofeyeviç fürsətdən istifadə edib Tahiri oxutdurdu.

*"Qədəm qoyub yar yanına gələndə,*
*Elə gəl, elə get yol inciməsin.*
*Şəkər ləblərindən mənə busə ver,*
*Dodaq tərpənməsin, dil inciməsin".* [5, s.81]

Buradakı qoşma aşıqlığın padşahı kimi tanınan Aşıq Abbas Tufarqanlının yaradıcılığındandır. Yazıçı sıradan nəğmələr yox, aşıqlıq sənətinin incilərini əsərində oxucuya çatdırmışdır. Deməli, M.Hüseyn folklordan bəhrələnməni kifayət qədər mükəmməl icra etmişdir.

Tahir obrazı sadəcə, lazım olan məqamlarda saz çalıb-oxuyan folklor obrazı kimi təqdim edilməmişdir. 30-50-ci illərin ədəbi-estetik meyarlarına görə, xalq qəhramanı yuxarı təbəqələrə qarşı əks mövqedə dayanmalı idi. Burada da sinfi mübarizəyə qarşı çıxan bir neçə obraz yaradılmış, yeri gəldikcə mövcud ideoloji sistemin tələbinə uyğun hadisələr canlandırılmışdır. Əsərin sonunda bütün problemləri böyük çətinliklərlə dəf edə bilən xoşbəxt briqada işçilərinin sevinc və arzularını verərkən yazıçı yenə də aşıq nəğməsinə müraciət edir.

"Uzaqlaşan qayıqlardan yalnız bir nəfərin səsi eşidilirdi.

....Oxuyan Tahir idi. O, indi neftçi dostlarına mədhnamə deyir, qarşısında oturmuş Lətifəyə baxa-baxa mahnısını zilə çəkirdi.

Qüdrət isə dinmir, cavan aşığın bağrından qopub gələn bu nəğməni dinlədikcə ürəyi tel-tel olurdu.

Tahirin nəğməsi isə həyat qədər şirin, məhəbbət qədər güclü idi...." [5, s.309]

M.Hüseynin növbəti nəsr əsəri 1954-58-ci illərdə yazdığı "Qara daşlar" romanıdır. Əsərin sujet xəttindən, burada işlədilən bəzi obrazlardan aydın olur ki, "Qara daşlar" "Abşeron" romanının davamıdır. Xalq yazıçısı İsa Muğanna Mehdi Hüseynlə bağlı xatirələrindən danışarkən qeyd edir ki "Üç il sonra "İnqilab və mədəniyyət" jurnalında ilk mətbu yazım çap olunanda və M.Hüseyn jurnalın bir hissəsini mənə bağışlayanda ona başıma gələn əhvalatı danışaraq – "üç ildi heçnə yaza bilmirdim!" – dedim. O isə qəribə gülüşü ilə əlimdəki nüsxəni aldı.

- Sən elə bilirsən tamam orijinal şey yazmısan? Bu cümləni hardan çırpışdırmısan? – jurnalı açıb altından karandaşla xətt çəkilmiş sözləri göstərdi: – "Göy soğan kimi xışıldayan ot..." – Bu mənim vaxtı ilə məhv etdiyim hekayəmdən yadımda qalmış sözlərdi ki, üç il sonra bir qədər başqa şəkildə gəlib bu oçerkə düşmüşdü.

- Plagiatlıq eləmisən aşna. Yazıçının özünün özündən oğurlaması daha pisdir. Bu o deməkdir ki, təzə təşbeh tapa bilməmisən, köhnə baqajına əl uzatmısan. Mənim yaşımda bəlkə də bunu bağışlamaq olar. Sənə – yox" [2, s.410-411]. "Qara daşlar" "Abşeron"un davamı hesab edilsə də, yazıçı özünü təkrarlamamış, əsərdə müasir insanın hərtərəfli inkişafı izlənilmişdir. Zəngin obrazlar

sistemi olan bu əsərdə aşıq obrazı da, saz mövzusu da yeni kontekstdən işlənilmişdir. "Qara daşlar" romanında Tahir artıq kənddən şəhərə gələn gənc fəhlə yox, kifayət qədər təcrübəli buruq ustasıdır. Əsərdə briqadaçılar adəti üzrə dənizdə yol gedərkən vaxtın necə keçdiyini anlamamaq üçün hərə bir ağız zümzümə edirdi. Borcunu vermək vaxtı Tahirə çatanda sazsız oxuya bilmədiyini söyləyir.

"- Gərək mən bir xeyli çalam, necə deyərlər, sinəmi bala-bala qızdıram. Bəlkə onda mənə ilham gələ. Yoxsa elə-belə oxumağa adət eləməmişəm. Aşıq gərək həm çalsın, həm oxusun, həm də oynasın. Bunlardan biri əskik olsa, deyərlər ki, oxuyan aşıq deyil, naşıdır" [3, s.131]. Yazıçı əsərdə Tahir obrazının dili ilə həm aşıqlıq sənətinin incəliyini oxucularına çatdırır, həm də sözügedən dövrdə türk folklor söyləyicisinə olan münasibəti dilə gətirir.

"Tahir son illərdə təkdən bir oxuyurdu. Aşıq yaradıcılığının üstünə bərk düşmüşdülər. Doğrudur, bu hadisə Tahiri o qədər də əsəbləşdirmirdi, çünki onun fikrincə, bu yaradıcılığı öldürmək də xalqı öldürmək kimi qeyri-müşkün idi" [3, s.132].

XX əsrin 20-50-ci illərinə nəzər salsaq proletkultçular sosialist inqilabına qədərki yazılı ədəbiyyatı "zəhmətkeş xalqdan ayrı olan, yuxarı təbəqələrə məxsus mədəniyyət tipi hesab edir və ağına-bozuna baxmadan üstündən xətt çəkərək mövcud cəmiyyətin mənəvi həyatından qoparıb atmağa çalışırdılar. Hətta əruz-qəzəl sisteminə qarşı mübarizə məsələsində iş o yerə gəlib çatmışdı ki, "Daloy Füzuli", "Daloy tar", "Daloy muğamat" kimi vulqar şüarlar ədəbi müzakirə tribunalarından, mətbuat orqanlarından sıx-sıx səslənirdi" [1, s.26]. Amma "Daloy saz", "Daloy aşıq" ifadələrinə rast gəlinmirdi. Çünki mövcud ideoloji sistem aşığı da, onun sazını da qara, sadə camaatın yaratdığı qənaətində idilər. Buna baxmayaraq, bir sıra yazıçılar, o cümlədən də M.Hüseyn əsərdə aşıq obrazının təqdimini verərkən müəllif müdaxiləsi edərək, bir sıra siyasi-ideoloji çalarlar da əlavə etmişdi. Aşağıdakı hissəyə nəzər yetirək:

"XX əsrdə nə aşıqbazlıqdır? Nə yapışmısınız bu sazın quyruğundan?

Tahir bir istədi qışqırsın, tülküsifət natiqi fitə bassın, ona öz yerini göstərsin, amma məclisdə oturanların töhmətindən çəkinib dinmədi. Yalnız bir atmaca ilə kifayətləndi:

- Ey, yoldaş, sənin xoşun gəlmirsə qulağına pambıq tıxa! Sən başqasının vəkili deyilsən!" [3, s.132].

Əsərin digər maraqlı hissəsi Koşkinlə İmanov arasındakı dialoqda ortaya çıxır. İmanov hamının eşidəcəyi səsdə xalq aşıqları, oxuyanları, çalanları olmasa xalqın həyatının xeyli yoxsullaşacağını söyləyir. Milli mənəviyyatımızın zəngin xəzinəsi olan aşıq sənətimizi əlimizdən almaq istəyirlər deyəndə qeyri-ixtiyari hər kəs söhbətə qoşularaq günahkarı axtarmağa başlayır.

"- Kim, kim almaq istəyir? – deyə söhbətsiz qulaq asan Trofim Mixayloviç soruşdu.

Şeyda gicgahını qaşıya-qaşıya fikrə getdi:

- Onların adı lap dilimin ucundadır, – dedi, – o nə təhərdi? Hə, hə, kos-mo-po-lit-lər [3, s.133]

Əsərin sonlarına yaxınlaşdıqca Tahirin toy məclisində aşıq obrazı ilə yenidən qarşılaşırıq. Bu hissədə yazıçı el sənətkarının mükəmməl bədii portretini yaratmışdır. Elin adət-ənənəsini qələmə alan sənətkar gətirdiyi folklor örnəyini öz təbii halında saxlamış, heç bir ideoloji boyadan istifadə etməmişdir.

## Nəticə / *Conclusion*

Gətirdiyimiz nümunələrdən belə nəticəyə gəlirik ki, Mehdi Hüseyn nəsrində, ümumiyyətlə, bütün yaradıcılığında folklor obrazları, folklor mövzusu aparıcı xətt olmuşdur. Mehdi Hüseyn folklor örnəklərini obrazlaşdırarkən, hekayələşdirərkən onları öz təbii halında saxlamağa çalışmışdır. Əlbəttə, dövrün tələbinə uyğun olaraq bəzi əsərlərində ideoloji cizgilər nəzərə çarpsa da, bu hal bütünlük təşkil etməmişdir. Xüsusilə nəsr əsərlərində yer alan aşıq obrazı mövcud ideoloji siyasi sitemin sərt üzünə baxmayaraq, bitkin şəkildə canlandırılmışdır. XX əsrin 20-50-ci illər mərhələsində ustad sənətkar aşıq, saz mövzusuna müraciət edərək, sözügedən folklor obrazının təqdimində

mövcud siyasi rejimin iç üzünü müəyyən qədər göstərməyə çalışmışdır. İstənilən halda aşıq da, onun sazı da, sənəti də üstün tutulmuşdur.

***Ədəbiyyat / References***


1. Hüseyn M. Qara daşlar. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1959, 472 s.
2. Hüseyn M. Seçilmiş əsərləri. 3 cilddə, II cild. – Bakı: Avrasiya Press, 312 s.
3. Hüseyn M. Seçilmiş əsərləri. 3 cilddə, I cild. – Bakı: Avrasiya Press, 2005, 320 s.
4. İsa Muğanna. Seçilmiş əsərləri 6 cilddə, II cild. – Bakı: Avrassiya Press, 2009, 429 s.
5. İsayeva Nigar. XX əsr Azərbaycan hekayəçiliyi və folklor. – Bakı: Uğur, 2008, 160 s.
6. Mir Cəlal. Zəngin yaradıcılıq yolu : (M.Hüseynin yaradıcılığı haqqında). – “Azərbaycan”, №4, 1969, s.34-36.
7. Yusifli V. Səməndər quşu Mehdi Hüseyn – nasir və dramaturq. – “Azərbaycan” jurnalı, 2008, №1.


## Образ ашуга в прозаическом творчестве Мехди Гусейна

**Нармин Гасанова**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: nrmn2294@gmail.com

**Резюме.** Мехди Гусейн (1909-1965) один из выдающихся представителей азербайджанской прозы, начало творчества которого приходится на советский период её формирования в XX веке. Начавший своё творчество с маленьких рассказов Мехди Гусейн оставил после себя богатое литературное наследие. В своих прозаических рассказах он касался многих тем и сумел с помощью созданных образов донести до общества, народа знаменательные события сложного и противоречивого этапа своей жизни. При рассмотрении творчества Мехди Гусейна явно заметно, что оно не обошлось без влияния фольклора как главного источника. Включая и малые рассказы, и большие произведения несут в себе обращение к народной литературе. Не забыты и основные национальные атрибуты озан-ашуг, образы которых оживают в прозаических и драматических произведениях. Помимо того, что прозаические произведения Мехди Гусейна имеют важное значение в нескольких аспектах, в статье как основной превалирует вопрос изучения образа ашуга. В статье говорится о воплощении образов сказителей фольклора в художественном произведении в сложном и тревожном отрезке времени 30-50-х годов XX века.
**Ключевые слова:** Мехди Гусейн, рассказ, роман, ашуг, саз, XX век